**AZƏRBAYCAN ELM FONDU**

Bakı şəhəri 14 mart 2024-cü il

**Azərbaycan Elm Fondunun**
**«Əsas Qrant Müsabiqəsi- 2024»ün**
**keçirilməsi haqqında**

**E L A N**

**«Əsas Qrant Müsabiqəsi 2024» -** ün proqramı qabaqcıl texnologiyaların, kəşflərin və perspektivli inkişafların sayını artırmaq üçün nəzərdə tutulub. Bu müsabiqə elmi tədqiqatlardan tutmuş nümayiş layihələrə və innovasiyalara qədər geniş spektrli fəaliyyətləri dəstəkləyir. **«Əsas Qrant Müsabiqəsi 2024»** -nin əsas məqsədi müsabiqə əsasında ayrılan maliyyə vəsaiti hesabına elmi səviyyəni yüksəltmək və yeganə meyar olan tədqiqatın elmi əhəmiyyətini rəhbər tutaraq alimlərin özləri tərəfindən təklif olunan mövzular üzrə tədqiqatları dəstəkləməkdir. **AEF**-in qrantları tədqiqat qrupları tərəfindən həyata keçirilən tədqiqat layihələrinə ayrılır. Perspektivli gənc alimlər, eləcə də öz elmi sahəsində lider olan tədqiqatçılar bu qrant üçün müraciət edə bilərlər. Müraciət edənlərin yaşı, eləcə də tədqiqatın tematik sahələri ilə bağlı heç bir məhdudiyyət yoxdur. Qeyd etmək vacibdir ki, qrant şərtlərinə əsasən, tədqiqat rəhbəri və iştirakçılar layihə müddətində Azərbaycanda qalması tələb olunur.

Yuxarıda qeyd olunanlara istinad edərək, Azərbaycan Elm Fondu 2024-cü ildə **«Əsas Qrant Müsabiqəsi- 2024»** (**AEF-MGC-2024-2(50)**) aşağıdakı şərtlər daxilində

**ELAN EDİR:**

**Layihələrin növləri və maliyyələşdirilmə həcmi:**

- **Fundamental və tətbiqi xarakterli** elmi-tədqiqat layihələri;
- **300 000 manatadək** maliyyə həcmli layihələr.

**Müsabiqənin keçirilmə müddəti:**

- Müsabiqədə iştirak etmək üçün layihələr **2024-cü il 14 mart** tarixindən başlayaraq qəbul olunur;
- Müsabiqədə iştirak etmək üçün layihələrin qəbulunun son tarixi **26 aprel 2024-cü il saat 17.00-dır.**

**Müsabiqənin prioritet istiqamətləri**

1. “Yaşıl” cəmiyyət və dayanıqlı inkişaf naminə müxtəlif təyinatlı intellektual metodların və kibertəhlükəsizlik texnologiyalarının işlənilməsi. Yüksək effektliyə malik funksional materialların yaradılması
2. “Yaşıl kimya” və “yaşıl energetika” üçün yeni elektrod materialları, unikal xassəli nano-bio-kompozitlər, qazokimya proseslərinin katalizatorları və ekoloji əhəmiyyətli yeni texnologiyalar
3. Qazkondensat yataqlarının işlənmə prosesinin eksperimental tədqiqi
4. Böyük dərinliklərin karbohidrogen sistemlərinin tədqiqi
5. Aktiv geodinamik proseslərin (zəlzələ, vulkanizm, sürüşmə, karst, uçqun və s.) yerüstü və peyk monitorinqi
6. Xəzər dənizi akvatoriyasında karbohidrogen resurslarının qiymətləndirilməsi və axtarış-kəşfiyyat işlərininn yeni istiqamətlərinin müəyyənləşdirilməsi məqdəsi ilə yeni innovativ rəqəmsal texnologiyaların tətbiqi
7. Müasir innovativ üsullardan istifadə edilməklə qeyri müəyyənlik şəraitində quyuların qazılması prosesinin modelləşdirilməsi və qərarların qəbul edilməsi
8. İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur ərazilərində yeni geoloji-geofiziki tədqiqatlar
9. Qarabağ ərazisinin seysmilkiyi
10. Azıq mağarasında geoloji, arxeoloji, paleontoloji və mütləq yaş təyini üzrə fənlərarası kompleks tədqiqatlar
11. İqlim dəyişmələrinin təsirlərinə həssas sektorların adaptasiya problemləri
12. Ölkənin su ehtiyatlarının idarə edilməsinin təkmilləşdirilməsi və alternativ su mənbələrindən istifadə praktikasının genişləndirilməsi
13. İstilik effekti yaradan qazların inventarlaşdırılması və monitorinqi sisteminin inkişaf etdirilməsi
14. İqlim dəyişmələrinə mənfi təsir göstərən karbon qazının texnogen mənbələrdən tutulması, yığılması və yeraltı laylarda təhlükəsiz saxlanması texnologiyaları
15. Tutulmuş karbon qazının neftveriminin artırılması üçün istifadəsi və metanol, karbamid və digər sahələrdə xammal kimi istifadəsi imkanarının layihə təkliflərinin hazırlanması
16. Xəzər dənizini akvatoriyasında Günəş, külək və dalğa enerji potensialının məkan və zaman paylanmasının tədqiqi və bu enerji növlərinin istifadə texnologiyalarının araşdırılması
17. Xəzər dənizinin səviyyəsinin dəyişməsi və sahil dinamikası
18. Bərpa olunan enerji mənbələrindən (hidroenerji, geotermal enerji və bioenerji), hidrogen texnologiyasından, enerjinin saxlanılması və hidroakkumulyasiya tədbirlərindən istifadə perspektivlərinin öyrənilməsi və qiymətləndirilməsi
19. Yaşıl enerji mənbəyi olan hidrogenin alınmasının iqtisadi cəhətdən daha sərfəli üsulları
20. İşğaldan azad edilmiş ərazilərin təbii və mədəni ekosistemlərinin inkişaf perspektivləri
21. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yerli ənənəvi kənd təsərrüfatı sistemlərinin bərpası və inkişafı
22. İşğaldan azad edilmiş ərazilərdə aqrobio və postgenom texnologiyaların tətbiqi ilə prioritet kənd təsərrüfatı bitkilərinin sortlarının seçilməsi, yaradılması və tətbiqi

23. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bitki və heyvan xəstəliklərinin tədqiqi və onlara qarşı inteqrir mübarizə yolları
24. Yaşıl enerji və yaşıl iqtisadiyyat problemlərinin həllində müasir yanaşma və texnologiyalar, fotosintez prosesinin sintetik modelləri
25. Azərbaycan ədəbiyyatında ədəbi-tarixi şəxsiyyətlərin bədii obrazı: milli-mənəvi bütövlüyün təsdiqi
26. Azərbaycan ədəbiyyatında neft mövzusu ve neftçi obrazları
27. Azərbaycan şivələrində təbiət leksikasının ekolinqvistik təhlili
28. Azərbaycan dilinin yad təsirlərdən qorunmasının linqvistik, sosial vo kulturoloji aspektləri
29. Ən qədim Şuşanın mixi yazılı abidələri
30. İşğaldan azad olunmuş yaşayış məntəqələrinin küçə adlarının müəyyənləşdirilməsi, həmin ərazilərin toponimlərinin bərpası və bu ərazilərin toponimlər lüğətinin hazırlanması
31. Ekolinqvistika terminlərinin Azərbaycan dilinə və digər dillərə tərcümə və transliterasiyası
32. Böyük qayıdış prosesində Qarabağ və Zəngəzur folklor mühitləri: konservasiya və bərpa problemləri
33. Azərbaycanın qədim vo orta əsrlər tarixinə dair mənbələrin müəyyən edilməsi va tədqiqinin təşkili üçün mixi yazı, qədim fars dili (pəhləvi dili), qədim erməni dili (qrabar), alban dili, həmçinin Şərq dilləri üzrə (ərəb, fars, Çin) mütəxəssislər hazırlanması
34. Müxtəlif tarixi dövrlərdə Azərbaycanda meşəçiliyin tarixinin öyrənilməsi
35. Böyük Qayıdışın tarixi salnaməsinin hazırlanması
36. Azərbaycanın işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarındakı tarix və mədəniyyət abidələrinin külliyatının hazırlanması
37. Qərbi Azərbaycanın sistemli tarixinin hazırlanması
38. Arxeoloji qazıntılar zamanı aşkar edilən insan qalıqlarının antropoloji cəhətdən öyrənilməsi və DNT analizlərinin aparılmasının ilkin mərhələsi üçün AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun bazasında Bioloji antropologiya laboratoriyasının yaradılması
39. İşğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən arxeoloji ekspedisiyaların mobil-səyyar arxeoloji düşərgəsinin təşkili
40. “Milli şüur, subyektivlik və sosial ədalət problemi”nin tədqiqi

**Cari müsabiqənin keçirilməsinin əsas prinsipləri:**

1. Bu qrantlar yalnız müvəqqəti olaraq yaradılmış elmi yaradıcı kollektivlər tərəfindən təqdim edilmiş layihələrə verilir.
2. Qrant layihəsi ilə müsabiqədə iştirak etmək istəyən alimlər və tədqiqatçılar layihənin təqdimindən əvvəl müzakirələr aparmalı, qrant layihəsinin mövzusunu, şərtlərini və digər müvafiq məsələləri qarşılıqlı şəkildə razılaşdırmalıdırlar.
3. Müsabiqəyə təqdim edilən hər bir layihə həmin layihə üzrə rəhbərlə təmsil olunmalıdır.

4. Müsabiqəyə orta saylı **(layihə rəhbəri və icraçılar daxil olmaqla ən azı 5 nəfər və maksimum 10 nəfərədək)** müvəqqəti yaradıcı kollektivlər tərəfindən həyata keçirilməsi nəzərdə tutulan layihələr qəbul olunur.
5. Layihə rəhbəri və icraçılar kifayət qədər təcrübəli, beynəlxalq əlaqələrə malik, nüfuzlu elmi nəşrlərdə dərc olunmuş məqalələri olan alimlər olmalıdırlar.
6. **Layihənin icra müddəti 3 ildən artıq olmamalıdır.**
7. Elmi-tədqiqat qurumlarının planları üzrə mövzunun layihədə bilavasitə təkrarlanmasına yol verilmir.
8. Elm Fondu tərəfindən əvvəlki müsabiqələr üzrə maliyyələşdirilmiş və hal- hazırda maliyyələşdirilən, həmçinin digər fond və qurumlar tərəfindən maliyyələşdirilən mövzular üzrə layihələr müsabiqəyə qəbul olunmur.
9. **Elm Fondunda davam edən qrant layihələrinin rəhbər və icraçıları, bir qayda olaraq, bu müsabiqədə iştirak edə bilməzlər.**
10. Cari müsabiqədə hər bir şəxs yalnız bir layihə üzrə qrant iddiaçısı ola bilər (rəhbər və ya icraçı qismində).
11. Müsabiqəyə təqdim olunmuş layihələr qaydalara uyğun olaraq texniki və elmi ekspertiza mərhələlərindən keçir.
12. **«Əsas Qrant Müsabiqəsi 2024» proqramına magistr və ya daha yüksək dərəcəsi olan alimlər müraciət edə bilərlər.**
13. Müsabiqənin nəticələrinə görə qalib gəlmiş layihələrin rəhbərləri ilə Fond arasında layihənin icrası üzrə müqavilə bağlanılır və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçirilir.

**<u>Müsabiqədə iştirakın digər mühüm şərtləri:</u>**

a. multidissiplinar tədqiqatlar üzrə təqdim olunmuş;
b. beynəlxalq əməkdaşlıq çərçivəsində yerinə yetirilməsi planlaşdırılan (beynəlxalq əməkdaşlıq çərçivəsində xarici vətəndaşların bu müsabiqədə iştirakı nəzərdə tutulmur);
c. müxtəlif sahə elmi-tədqiqat institutlarından, akademik və təhsil qurumlarından olan alim və tədqiqatçılar (o cümlədən, magistrantlar və mütəxəssislər) tərəfindən yerinə yetirilməsi planlaşdırılan tədqiqat mövzuları üzrə təqdim olunmuş layihələrə elmi ekspertizanın nəticələri əsasında seçim zamanı üstünlük veriləcəkdir.

- Qrant layihəsi çərçivəsində elmi məqsədlər üçün tələb olunan əsas vəsaitlər (elmi cihazlar, avadanlıq və qurğular, elmi fəaliyyət üçün məmulatlar, ləvazimat və qeyri-maddi aktivlər və s.), iş və xidmətlər layihənin ümumi büdcəsinin 35%-dən (vergi və rüsumlar daxil olmaqla) artıq ola bilməz.

**<u>Layihələrin tərtibatı və təqdim olunması:</u>**

- Qrantların verilməsi üzrə müsabiqənin keçirilmə prinsipləri, müsabiqədə iştirak etmək üçün layihələrin verilməsi qaydaları, layihələrin ekspertizasının ümumi qaydaları, layihələrin həyata keçirilməsi şərtləri, müsabiqələrin xüsusiyyətləri də daxil olmaqla qrantların verilməsi üzrə müsabiqənin keçirilməsi qaydaları ilə Azərbaycan Elm Fondunun 2023-cü il 24 fevral tarixli Qərarı ilə təsdiq edilmiş "Elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə müsabiqələrinin keçirilməsi Qaydaları"nda tanış olmaq olar.

**Ümumi şərtlər:**

- Müsabiqənin keçirilməsi qaydaları və müddəti çərçivəsindən kənar təqdim olunan layihələr müsabiqənin texniki ekspertiza mərhələsindən keçmir və elmi ekspertiza mərhələsinə buraxılmır. Müsabiqəyə təqdim edilmiş sənədlər geri qaytarılmır. Müsabiqədə iştirak məqsədilə, o cümlədən layihələrin ekspertizası mərhələlərində saxta sənəd, imza və məlumatların təqdim olunması layihənin elmi ekspertizadan kənarlaşdırılmasına səbəb olur.
- Müsabiqəyə təqdim edilmiş bütün layihələrin ideyasının obyektiv formada orijinal ifadəsi müəlliflik hüququnun obyekti kimi Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində qeydiyyatdan keçiriləcəkdir.
- Müsabiqədə iştirakla bağlı ciddi problemlər yarandığı təqdirdə Elm Fondunun icraçı direksiyası ilə e-mail və ya telefon vasitəsilə əlaqə saxlanılması tövsiyə olunur.
- Sualların elektron poçt ünvanına göndərilməsi təqdir olunur.

**DİQQƏT!**

- Müsabiqədə iştirak etmək üçün ərizələr, ərizəyə əlavə olunan müvafiq sənədlər və digər müşayiətedici materiallar **2024-cü il 14 mart** tarixindən başlayaraq qəbul olunur. Müsabiqədə iştirak etmək üçün ərizələrin, ərizəyə əlavə olunan müvafiq sənədlərin və digər müşayiətedici materialların qəbulu üçün son tarix **2024-cü il 26 aprel saat 17:00-dır.** Müsabiqədə iştirak etmək istəyən şəxslərə "Elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə müsabiqələrinin keçirilməsi Qaydaları" ilə tam tanış olduqdan sonra müvafiq ərizə və sənədləri tərtib etmələri tövsiyə olunur. Bütün layihələr, bir qayda olaraq, Azərbaycan (1 nüsxə) və ingilis (1 nüsxə) (xarici ekspertlərdən rəy alınması üçün) dillərində tərtib edilməlidir. Müşayiətedici materiallar (şəxsiyyət vəsiqəsinin, diplomların, məqalələrin və digər sənədlərin surətləri, təqdimat və b.) isə 1 nüsxədə təqdim olunur. Layihələr üç formatda (kağız üzərində, elektron məlumat daşıyıcılarına yazılmış şəkildə və elektron variantın elektron ünvana göndərilə bilməsi üçün elektron fayllar şəklində) aşağıdakı üsullarla təqdim olunmalıdır:
- Müsabiqədə iştirak etmək üçün layihə rəhbəri və icraçılar tərəfindən imzalanmış ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların A4 formatlı ağ kağızda çap olunmuş variantını (Azərbaycan dilində 1 nüsxə, ingilis dilində 1 nüsxə) və elektron məlumatdaşıyıcılarına (CD, DVD və s.) yazılmış versiyası ilə birlikdə Fondun icraçı direksiyasının ünvanına (Bakı şəhəri, Yusif Səfərov küçəsi, 27, 9-cu mərtəbə) həftənin iş günlərində (bazar ertəsi – cümə) saat 10:00- dan 17:00-dək birbaşa çatdırmaqla və qeydiyyatdan keçirmək yolu ilə;
- Müsabiqədə iştirak etmək üçün ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların elektron variantını (Microsoft Word formatında elektron fayllarını) Fondun elektron-poçt ünvanına (**qrant@elmfondu.az**) göndərmək yolu ilə (bu zaman elektron məktubun **"mövzu" ("subject")** hissəsində aşağıdakı yazılışdan istifadə olunmalıdır:

  **«Əsas Qrant Müsabiqəsi 2024» - "AEF-MGC-2024-2(50) - Layihə rəhbərinin soyadı və adı - Elm sahəsinin adı)";**
- Elektron variantı təqdim olunmadığı halda, həmçinin Microsoft Word formatında olan

Formalara özbaşına düzəlişlər edildikdə layihə birmənalı olaraq texniki ekspertiza mərhələsindən keçmir. Ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların elektron variantının kağızda olan variantına tam uyğun olmasına məsuliyyəti layihə rəhbəri daşıyır. Müsabiqənin keçirilməsi qaydaları və müddəti çərçivəsindən kənar təqdim olunan layihələr müsabiqənin texniki ekspertiza mərhələsindən qəti olaraq keçmir və elmi ekspertiza mərhələsinə buraxılmır. Müsabiqəyə təqdim edilmiş sənədlər geri qaytarılmır. Müsabiqədə iştirak məqsədilə, o cümlədən layihələrin ekspertizası mərhələlərində saxta sənəd, imza və məlumatların təqdim olunması layihənin elmi ekspertizadan kənarlaşdırılmasına səbəb olur. Müsabiqədə iştirak etmək üçün ərizələrin və ərizəyə əlavə edilən müvafiq sənədlərin, Müsabiqələrin keçirilməsi Qaydalarının əldə olunması ilə bağlı problemlər yarandığı təqdirdə Elm Fondunun icraçı direksiyası (Bakı şəhəri, Yusif Səfərov küçəsi, 27, 9-cu mərtəbə) ilə birbaşa əlaqə saxlanılması tövsiyə olunur. Əlaqə telefonu: (012) 489-08-94, elektron poçt ünvanı: qrant@elmfondu.az; info@elmfondu.az.

AZƏRBAYCAN
ELM FONDU

Əlaqə telefonu: *(012) 489-08-94*
Elektron-poçt ünvanı:
*info@elmfondu.az*